**XURŞİDBANU NATƏVAN**

# ƏSƏRLƏRİ

"LİDER NƏŞRİYYAT"
BAKI-2004

*Bu kitab "**Xurşidbanu Natəvan.** Əsərləri"* (*Bakı, Yazıçı, 1984*)
*nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni və
ön sözün müəllifi: **Bəylər Məmmədov**

**894.3611 - dc 21**
**AZE**
**Natəvan Xurşidbanu. Əsərləri.** Bakı, "Lider nəşriyyat", 2004, 88 səh.

XIX əsrdə yaşayıb-yaratmış istedadlı qadın şairəmiz Xurşidbanu Natəvan (Xan qızı) ədəbiyyat və mədəniyyətimizin inkişafında əvəzsiz xidmətlər göstərmişdir. Füzuli poeziyasından bəhrələnən şairin qəzəllərindəki incə lirizm, dərin məzmun, yüksək emosiya onu bir sənətkar kimi zamanın yaddaşından silinməyə qoymamış, Natəvan lirikası öz təravətini saxlamışdır.

**ISBN 9952-417-13-4**
© "LİDER NƏŞRİYYAT", 2004

Azərbaycan Respublikasının
Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# ÖN SÖZ

Azərbaycan xalqının ədəbiyyatımıza bəxş etdiyi nadir şəxsiyyətlərdən biri də poeziyamızın iftixarı Xurşidbanu Natəvandır. Xurşidbanu Azərbaycan mədəniyyəti tarixində lirik şair və rəssam kimi şöhrət tapmışdır.

Nizami, Füzuli və Nəvai kimi nəhəng sənətkarların yüksək poetik ənənəsindən tərbiyə alıb böyüyən Natəvan, ötən yüzillikdə Azərbaycanda yazıb-yaradan qadın şairələrin ən istedadlı nümayəndəsi olmuşdur. O, yüksək şeir mədəniyyəti, orijinal yaradıcılığı ilə M.F.Axundov, Q.Zakir və S.Ə.Şirvani kimi görkəmli ədəbi simaların nəzər-diqqətini cəlb etmişdir. Klassik irsə dərindən yiyələnən Xurşidbanu Azərbaycan şeirinin gözəl xüsusiyyətlərini ləyaqətlə davam etdirmiş və qüvvətli rübabı ilə poeziyamıza təsir göstərmişdir.

Natəvan yaradıcılığa təxminən XIX əsrin 50-ci illərindən başlamışdır. İlk vaxtlar onun "Xurşid" imzası ilə yazdığı şeirlərin əksəriyyəti itib-batmış, yalnız cüzi bir hissəsi bizə gəlib çatmışdır. 1870-ci ildən etibarən şair özünə "Natəvan" (köməksiz, zəif, xəstə) təxəllüsü götürərək, dərin məzmunlu qəzəllərini yaratmışdır. Onun şeirləri hələ sağlığında dildən-dilə düşmüş, müasirləri arasında əlyazması şəklində yayılmışdır.

Təxəllüsündən bəlli olduğü kimi, Xurşidbanu şeirimizə narahat bir ilhamla, şikayətçi bir ruhla gəlmişdir. Füzulidə olduğu kimi, onun lirikasında da sevinclə kədər

birləşərək vəhdət yaratmışdır. Şair bu təzadların arxasında dayanaraq, ictimai ziddiyyətlərin dərin fəlsəfi mənasını axtarmış, ədalətlə haqsızlığı, səadətlə bədbəxtliyi törədən səbəblərin mahiyyətini açmağa çalışmışdır. Arzuları ilə həyat həqiqətləri arasında böyük uçurum olduğunu dərk edən Natəvan, nə cəmiyyət və təbiət qanunları ilə, nə də yaradılışla barışa bilməmişdir:

Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı!
Nə də bu aləm əra dil müqəyyədi-qəm olaydı!

Şair burada insanlara zindan kəsilən feodal dünyasının ədalətsiz qanunlarına öz narazılığını bildirmişdir.

Lakin, Xurşidbanu şeirlərində romantik boyalara, sentimental əhvali-ruhiyyələrə üstünlük versə də, real zəmindən uzaqlaşmamış, həyata, varlığa biganə qalmamışdır. Onun əsərlərindən həyat gözəlliklərinə canatma, ülviyyətə qovuşma meyli olduqca güclü və təsirli çıxmışdır.

Nikbinlik, həyatilik kimi məziyyətlərə Xurşidbanunun təbiət gözəlliklərinə həsr etdiyi şeirlərində də rast gəlirik.

Natəvanın mənalı ömrü, hadisələr, ziddiyyətlər və sarsıntılarla dolu həyatı ona zəngin ədəbi material vermişdir. Necə deyərlər, şair özündən mövzu uydurmağa ehtiyac duymamışdır. Onun qəzəlləri əsasən ya baş vermiş hər hansı bir əhvalatla əlaqədar yaranmış, ya da unudulmaz təəssüratların, xoş təsadüflərin və ya poetik müşahidələrin məhsulu olmuşdur.

Xurşidbanunun şeirlərini məzmun cəhətdən şərti olaraq dörd qismə ayırmaq mümkündür: aşiqanə şeirlər; təbiət gözəlliklərinə həsr edilmiş şeirlər; müasirlərinə yaz-

dığı mənzumələr. Bu əsərlərin hansı konkret ictimai-tarixi şəraitlə, real zəminlə bağlı meydana gəldiyini araşdırmaq baxımından Natəvanın həyat və yaradıcılığı ən yaxşı tədqiqat obyektidir.

Xurşidbanu 1832-ci il avqustun 15-də musiqiçilər və şairlər vətəni Şuşada, Qarabağın son hakimi Mehdiqulu xan Cavanşirin ailəsində dünyaya gəlmişdir. Ailədə "Dürrü yekta", xalq arasında isə "Xan qızı" ləqəbi ilə çağırılmışdır. Natəvan saray tərbiyəsi görmüş, dövrün tanınmış alim və sənətkarlarından dərs almışdır. Müstəsna hafizəyə malik olan Xurşidbanu mütaliə yolu ilə məlumatını dərinləşdirmişdir.

Natəvan xan qızı olsa da şəxsi həyatından, taleyindən razı qalmamışdır. O, hələ uşaqlıqdan bir sıra məhrumiyyətlərin, uğursuzluqların acısını dadmalı olmuşdur. Xurşidbanunun uşaqlığı xanlığın iflası ilə bir vaxta düşdüyündən, ailədə hökm sürən məyusluq, pərişanlıq və əsəbilik ona da təsir etmişdir. Göz açıb sarayın yeknəsəq, cansıxıcı həyatını görən xan qızı, ailədəki təklikdən və quru ayinlərin icrasından zinhara gəlmişdir. Odur ki , o, bədəncə sağlam olmamış, zəif, cılız bir uşaq kimi böyümüşdür.

Xurşidbanunun gəncliyi də fərəhsiz keçmişdir. Çünki onu əhatə edən mürəkkəb ictimai şərait, yaşadığı qaranlıq mühit hər cür qanunsuzluqlara haqq qazandırmış, ədalətsizliyə, özbaşınalığa imkan yaratmışdır. Natəvan öz hüquqsuzluğunu çox erkən dərk etmiş və ətrafında cərəyan edən hadisələrə laqeyd baxa bilməmişdir. Atası Mehdiqulu xanın get-gedə hakimiyyətdən uzaqlaşdırılması, istər-istəməz, Xurşidbanunu da bədbinləşdirmişdir. Xan-

lığın tamamilə ləğvi firavan həyat sürməyə adət etmiş ailənin müqəddəratı üçün qorxu törətmişdir. Natəvan on üç yaşında ikən Mehdiqulu xan ölmüş, ailə başsız qalmışdır. Fürsətdən istifadə edən şöhrətpərəst xan və bəylər tezcə bu ailə ilə qohum olmaq xəyalına düşmüş, fasiləsiz təklif və məsləhətləri ilə Xurşidbanunu çıxılmaz vəziyyətdə qoymuşlar. Xan qızının nişanlanması tədbiri getdikcə ciddiləşmiş, bir müddət Qarabağ nücəbaları ilə rəsmi dövlət dairələri arasında siyasi çəkişmələrə gətirib çıxarmışdır. Mürtəce zadəgan və ruhani qruplaşmaları Xurşidbanunu nücabə nəslindən birinə nişanlamaqla kübar ailələr arasında birlik yaratmaq və xanlığı yenidən bərpa etmək məqsədi güdmüşlər. Çarizm isə əksinə, xan ailələrinin qohumlaşmaq cəhdinə mane olmağa çalışmışdır. Nəticədə Qafqaz canişini Vorontsov iqtisadi təzyiq göstərmək, hədə-qorxu gəlmək yolu ilə Xurşidbanunu çarın etibar etdiyi dağıstanlı knyaz Xasay xan Usmiyevlə evlənmək məcburiyyətində qoymuşdur. Beləliklə, Natəvanın xoşbəxt ailə qurmaq arzusu da puça çıxmışdır. Natəvan insan ləyaqətinin alçaldılmasına, şəxsi arzuların buxovlanmasına etirazını bildirərkən, öz şeirlərində taleyindən acı-acı şikayətlənmiş, dövrünü vəfasızlıqda, xəyanətdə ittiham etmişdir:

Dövrü dönmüş dövr dövran etmədi kamimcə, ah!
Düşmənimdir, bilməzəm kim, netmişəm dövranə mən!

Xurşidbanu geniş qəlbinin müqabilində ona verilmiş miskin və darısqal həyatla heç cürə uyuşa bilməmişdir. O, sevmədiyi, xoşlamadığı çar generalının evində də sıxın-

tıdan, laqeydlikdən, etinasızlıqdan və kobudluqdan başqa özgə bir şey görməmişdir. Xasay xan iki övlad atası olduqdan sonra da kef məclislərindən əl çəkməmişdir. Ailə üzvlərinə can yandırmaması, təsərrüfata biganə münasibət bəsləməsi onsuz da Natəvanda onun səmimiliyinə inam yeri qoymamışdır. Yalnız 1864-cü ildə Xasay xanın ailəsini atıb getməsi və knyaz Loris-Melikovla münaqişə nəticəsində sürgünə göndərilərək, 1866-cı ildə orada özünü öldürməsi, Xurşidbanuya boşanmaq üçün qanuni əsas vermişdir. Amma zəmanə ilə onun arasındakı "ideya mübarizəsi" bununla bitməmişdir. Qarşıda şairi əzab-əziyyətli günlər gözləyirdi. Xurşidbanu özü də bunu duymuş və bir şeirində "Neçə qərinə keçib çəkməz əl cəfasından", deyə ixtilafın davam etdiyinə işarə vurmuşdur.

Natəvan bir qədər asudə olmaq istədikdə anası Bədircahan bəyim vəfat etmiş, ailənin, evin qayğısı, təsərrüfatın ağırlığı onun üzərinə düşmüşdür. Xan qızının köməksiz, arxasız qalması düşmənləri fəallaşdırmışdır. Onlar Natəvanın hər addımına göz qoymuş, mədəni təşəbbüslərinə, xeyirxah tədbirlərinə riya donu geydirmişlər. Şairin camaat arasına üzüaçıq çıxması, şeirə, rəsmə və musiqiyə həvəs göstərməsi ruhani başçılarının xoşuna gəlməmişdir. O, ərsiz qaldığına görə xəbis və nadan adamlardan ünvanına tikanlı sözlər eşitmişdir. Xurşidbanu tənə və məzəmmətlərə son qoymaq üçün 1869-cu ildə Seyid Hüseyn Ağamirov adlı bir şuşalı ilə ailə qurmaq qərarına gəlmişdir. Lakin bununla Xurşidbanu başını bəlaya salmış, köhnə adət-ənənəni pozub rəiyyət oğluna getdiyi

üçün hakim sinifləri qəzəbləndirmişdir. O, ömrünün sonuna qədər təqib və təhdidlərdən yaxa qurtara bilməmişdir. Düşmənləri Natəvanın ailə üzvləri arasında təfriqə salıb, böyük oğlu Mehdiqulu xanın evdən baş götürərək, uzaq vilayətlərə getməsinə müvəffəq olmuşdular. Oğlundan uzaq düşməsi ananı fəraq oduna yandırmış, intizarda qoymuşdur. Natəvanın məşhur "Ölürəm" və "Ey dust" rədifli mənzumələri də məhz bu ayrılığın təsiri altında yazılmışdır. Aşağıdakı beytlərdə şair, ona yamanlıq edən düşmənlərini haqqın divanına çəkmişdir:

Rəqib töhməti etdi məni cüda, ey dust!
Bu zülmü gördü rəva, görməsin səfa, ey dust!
Çağırram Allahımı, hal-Natəvan ilə
Məgər ki , tez verə həq düşmənə cəza, ey dust!

Bunun ardınca 16 yaşlı oğlu Mir Abbasın ölümü Xurşidbanunu intəhasız dərdlərə, məşəqqətlərə düçar etmişdir. Oğul dağına tablaşmadığından Natəvanın səhhəti pozulmuş, bir ilə qədər xəstə yatmışdır. Sağalandan sonra da ruhi iztirablar, üzüntülər Xurşidbanunu rahat buraxmamışdır. Ağlamaqdan gözlərinin nuru getmiş, ayaqları taqətdən düşmüşdür. Şairin "Könlüm" qəzəlinin mətlə beyti onun faciəli günləri, kədərli həyatı ilə çox yaxından səsləşir:

Baxın bu Natəvan zarə, günü bəxtim kimi qarə
Gəzər Məcnun tək avarə, mənim naşad olan könlüm.

Bir sənətkar kimi Natəvanın yetişməsində mənsub olduğu ədəbi mühitin rolu az olmamışdır. Xasay xanın qul-

luğu ilə əlaqədar olaraq, Xurşidbanunun dörd-beş ilə yaxın Tiflisdə yaşaması, onun şair və rəssam kimi formalaşmasına böyük təsir göstərmişdir. Tiflis mühiti Xan qızına Qafqazın çoxmillətli mədəniyyəti ilə tanış olmaq və ondan bəhrələnmək imkanı yaratmışdır. Natəvan bu şəhərdə rus, gürcü mədəni cəmiyyətlərinə qoşulmuş, özü də milli ənənəsi, kübarlara məxsus davranışı və üç dildə sərbəst danışması ilə bu cəmiyyətlərdə maraq oyatmışdır.

Bir sıra vilayət və şəhərlərə səyahətə çıxması Xurşidbanunun təfəkkür dairəsinin genişlənməsinə, dünyagörüşünün artmasına təkan vermişdir. Vladiqafqaza, Dağıstana, Şirvana, Bakıya, Gəncəyə və Naxçıvana səfər zamanı o, çarizmin ucqarlarda yeritdiyi müstəmləkə siyasətinin şahidi olmuş, yüksək rütbəli dövlət qulluqçuları, yazıçı, alim və səyyahlarla görüşmüşdür. 1858-ci ildə xoşbəxt bir təsadüf Bakıda məşhur fransız yazıçısı A.Düma ilə Xurşidbanunu rastlaşdırmışdır. Xasay xanın fransız dilində "əsl parisli kimi" danışması qonaqların heyrət və sevincinə səbəb olmuş, aralarında dostluq telləri yaratmışdır. Onlar Abşeronda birgə gəzintiyə çıxmış, ayrılarkən bir-birinə qiymətli hədiyyələr təqdim etmişlər. Natəvanın Bakıdan Şıx kəndinə daş yol çəkdirməsi haqqında ilk məlumatı da A.Düma özünün "Qafqaza səyahət" kitabında vermişdir.

Təbiidir ki, Natəvan kimi istedad və bacarıq sahibi yalnız bir sahədə inkişaf edib qala bilməzdi. Artıq 1870-1880-ci illərdə onun həyatında və yaradıcılığında yeni mərhələ başlamışdır. Şair maarifin, mədəniyyətin yayılmasına kömək göstərmiş, ictimai-mədəni tədbirlərdə fəal

iştirak etmişdir. Bu illərdə o , əsas diqqəti 18 kənddən, bir neçə yaylaq və zavoddan ibarət təsərrüfatı nizama salmaq və onu yeni qaydada idarə etmək işinə yönəltmiş, yollar çəkilməsinə, körpülər salınmasına, məktəb binası tikilməsinə illik gəlirdən xüsusi fond ayırmışdır. "Qafqaz" qəzeti Şamaxıda təsis olunan "Svyataya Nina" qızlar məktəbinə Xurşidbanunun min manat yardım göstərdiyini xəbər vermişdir.

İncəsənətin bütün növlərinə bələd olması Natəvanı dövrünün görkəmli sənətkarları ilə yaxınlaşdırmışdır. Onun düzəltdiyi ziyafətlərin, söhbət məclislərinin iştirakçıları çox vaxt müxtəlif sənəti təmsil edən ziyalılar olmuşdur. Uzaq şəhərlərdə oxuyan azərbaycanlı tələbələr, yoxsul alim, şair və sənətkarlar Xurşidbanudan yardım almışlar. "Qarabağla birlikdə bütün Zaqafqaziyanın sənət sahibləri onun himayəsinə sığınırdı" ("Kaspi" qəzeti, 1911; №146).

Həyatını dövrün tələbləri səviyyəsində qurmağa adət edən Natəvanın vətənində yaratdığı yeniliklərin, zövq və həvəslə gördüyü işlərin sədası uzaq ellərə yayılmışdır. Onun bəslədiyi Qarabağ cinsli köhlənlər 1867-ci ildə Parisdə, Əlcəzairdə, 1869-cu ildə isə Moskvada Dünya sərgisində birincilik qazanmış, qızıl medala, fəxri fərmana layiq görülmüşdür. Tiflisdə təşkil edilən ölkə kənd təsərrüfatı sərgisində şairin əl işləri, becərdiyi buğda, arpa və darı sortları ən yaxşı eksponat kimi münsiflər heyətinin tərifnaməsini almışdır.

Natəvanı Qarabağın abadlaşdırılması, Şuşanın mədəni görkəm alması məsələsi ciddi düşündürmüşdür. O, 1873-cü ildə yüz min manat sərf edərək, yeddi kilo-

metrlik məsafədən sıldırım qayaların döşü ilə Şuşaya içməli su çəkdirmişdir. Şəhər əhalisi bunu əsl fədakarlıq, vətənpərvərlik nümunəsi kimi alqışlamışdır. Yüksək ideallarla, pak niyyətlərlə yaşayan bu qeyrətli qadın, şəhər sakinlərinin yüz illik arzusunu həyata keçirdikdən sonra bulaq çəkdirmişdir, su ambarı, hamam, buzxana tikdirmiş və park saldırıb camaatın istifadəsinə vermişdir. Əsl mənada Natəvan vətənin rifahı naminə canını, varını əsirgəməyən, xalq yolunda ürəyini məşəl edən el anası olmuşdur.

Natəvan yaradıcılığının coşqun çağları Qarabağ ədəbi məclislərinin fəaliyyət göstərdiyi dövrlə sıx bağlıdır. F.Köçərli bu dövrü "XIX əsr ədəbiyyatının xoşbəxt zamanı" adlandırmışdır. 1872-ci ildə Xurşidbanunun təşəbbüsü və maddi yardımı ilə əsası qoyulan "Məclisi-üns" ədəbi məclisi öz ətrafına otuza yaxın şair toplamışdır. "Məclisi-üns" üzvlərinin sayına və tərkibinə görə sonradan təşkil edilən "Beyti-Fəramuşan" (Şuşa), "Məcməüşşüara" (Bakı) və "Beytüssəfa" (Şamaxı) məclislərindən fərqlənmişdir. F.Köçərli Şuşa ədəbi məclislərinin ümumən şerimizin inkişafındakı rolundan danışarkən qeyd etmişdir: "Xüsusən Qarabağ şairləri nəhəng qartallar kimi Şuşa dağlarının poetik zirvəsində məskən salaraq, öz fövqlərindən poeziyaya ton vermişlər".

Natəvanın 20 ilə qədər rəhbərlik etdiyi "Məclisi-üns" də Azərbaycan, fars dilləri ilə yanaşı, cığatay dilində də qiymətli mənzumələr yaranmışdır. Məclisdə klassiklərdən tərcümələr edilmiş, Xaqani, Nizami və Füzuli kimi qüdrətli qələm sahiblərinin əsərlərinə nəzirələr yazılmışdır. Şeirlərin bir qismi də məşğələ zamanı məclis üzvlə-

rinin bədahətən söylədikləri beyt və ya misralardan düzəlmişdir. Aşağıdakı mənzum parça buna yaxşı nümunə ola bilər:

*Natəvan*. Kaş əzəldən gəlməyəydim, ey fələk, dünyaya mən,
*Kəminə*. Gəldiyim gündən əsirəm bir quru sevdayə mən.
*Fəna*. Vermişəm dil, bağlayıb bel bir vəfasız dilbərə,
*Növrəs*. Salmışam billah, bəlasız başımı qovğayə mən.
*Həsən*. Əhli-aləmdə, könül, nə sidq vardır, nə səfa,
*Məxfi*. Mehrisizdirlər sərasər, kimsədə yoxdur vəfa.
*Təbib*. İndi ki, var dustaqlarda hiyləvü kizbi-riya,
*Aşiq*. Nə görəydim hiyləni, həm nə düşəydim vayə mən.

Qarabağ şairləri Azərbaycanın bir çox şəhərləri ilə birlikdə, Tiflis, Orenburq, Həştərxan, Buxara, Mərv, Bombey, Kəlkətə və Bağdad şəhərləri ilə də ədəbi əlaqə saxlamışlar. Bu məclislərdə adlı-sanlı şair, musiqiçi və rəssamların sənətkarlığı izlənmiş, onların incəsənətə gətirdikləri yenilik müzakirə edilmişdir. Bu zaman Xurşidbanunun ilhamla qələmə aldığı “Eylər”, “Gətirir”, “Mən idim”, “Sən idin”, “Bənzətdim” və ”Ölürəm” rədifli ürəyəyatan qəzəlləri Azərbaycan şairləri arasında şeirləşmələrə səbəb olmuşdur. Qarabağ, Şəki, Şirvan, Bakı, Quba, Gəncə, Naxçıvan, Ordubad şairləri Natəvan əsərlərindəki yüksək sənətkarlıqdan təsirlənərək, onlarca nəzirə və təxmis yazmışlar.

Natəvan yaradıcılığının bir hissəsini də şairin şəxsi faciəsi ilə əlaqədər olaraq 1885-1886-cı illərdə yazdığı silsilə şeirləri təşkil edir. Bu əsərlərdə oğlunun ölümü ilə

ağır matəmə batan, mənəvi sarsıntılara məruz qalan və göz yaşları içərisində boğulan bədbəxt ananın ah-naləsi eşidilir. Xurşidbanunun iztirabları, əzabları çoxaldıqca, şəxsi kədər dairəsindən kənara çıxıb, çox analara məxsus olan ələm və qüssə həddinə çatmışdır. Üz vermiş fəlakət bəzən də talesiz aşiqlərin başına gələn müsibətlər timsalında təzahür etmişdir:

Nə hicrü yarə təqatü halim vəfa edər,
Nə vəslə çatmaz əl, edibən dad, ağlaram.

Şair, bəzən də çəkilməz dərdlərini bəşəri faciə səviyyəsinə qaldırır:

Düşəydi çərx gərdişdən, olaydı dəhri-dun viran,
Bəşər tab eyləməz hərgiz, zəminü asiman ağlar.

Xurşidbanu başına gələn bədbəxtliyin səbəbini yenə də cinayətkar mühitdə, şər qüvvələr içərisində axtarmış, fənalıqlara bais olanlara nifrət yağdırmışdır:

Hicrani-yar səbəb oldu ağlamağıma,
Ya rəb, görüm həmişə səbəbkarı ağlasın.

Xurşidbanunun bu mövzuda yazdığı şeirlərində analarımızın ağır dərdlərə dözmək, bəlalara sinə gərmək bacarığı böyük ustalıqla nümayiş etdirilir.

Natəvanın 1886-cı ildə tərtib etdiyi və hal-hazırda Respublika Əlyazmaları fondunda saxlanılan 227 səhifədən ibarət “Gül dəftəri” adlı məşhur albomunda on üç

şeiri, naturadan çəkdiyi təsvirlər və müasirlərinin lirik parçaları toplanmışdır. Şairlərdən M.R.Fəna, M.Məmai, H.Yüzbaşıyev albomdakı tikmə və şəkillərə mənzumələr həsr etmiş və Xurşidbanunun sənətkarlığını Şərqin məşhur rəssamları, nəqqaşları ilə müqayisədə qiymətləndirmişlər.

Ömrünün son beş ili Natəvan üçün həm həyatda, həm də sənətdə ağır və böhranlı keçmişdir. Yaşı altmışı haqlayan xəstə şairin ixtiyarındakı kənd və yaylaqların xeyli hissəsi alınıb Xasay xanın uşaqları arasında bölüşdürülmüşdür. 1891-ci ildə Seyid Hüseyn həyatdan köçmüş, Natəvanın ondan olan üç oğlu, iki qızı vərəsəlikdən məhrum edilmişdir. Şairin evindən qiymətli əşyalar yoxa çıxdığından borca düşmüş, Mil düzündən çəkdirdiyi su arxı yarımçıq qalmışdır. Borcları ödəmək üçün onun qadın zinətləri, əkin və xırman yerləri satışa qoyulmuşdur. Ruh düşkünlüyü, naxoşluq şairi ədəbiyyat meydanından çəkilməyə vadar etmişdir. Rəhbərsiz qalan "Məclisi-üns" davam gətirməyib dağılmışdır. Nəvvaba yazdığı son cavab məktubunda Natəvan öz əhvalını belə şərh etmişdir:

Qəmü-əyyamidən çox natəvanəm,
Əliləm, naxoşam, əfsürdəcanəm.
Bu tətildən özüm də bədgümanəm
Məgər kuhi-qəmə Fərhad oldum.

Xəstəlik günbəgün şiddətlənərək Xurşidbanunun vəziyyətini ağırlaşdırmış və o, 1897-ci il oktyabr ayının 1-də Şuşada vəfat etmişdir. Şairin ölümü təkcə Azər-

baycanın yox, bütün Qafqazın qabaqcıl, maarifpərvər adamlarını kədərləndirmişdir. Bu münasibətlə “Qafqaz”, “Tərcüman” və başqa qəzetlərdə nekroloqlar və Natəvanın həyat fəaliyyəti haqqında yazılar dərc edilmişdir. Xurşidbanunun vəfatı şairlər tərəfindən “ədəbiyyat aləminə üz vermiş fəlakət”, “şeir məclisində günəşin batması” kimi obrazlı ifadələrlə qələmə alınmışdır.

XX əsirin ilk yarısında Xurşidbanunun şeirlər məcmuəsi bir neçə dəfə çapdan çıxmışdır. Respublikamızın paytaxtı Bakıda iki yerdə şairə əzəmətli heykəl qoyulmuş, vətəni Şuşada tunc büstü ucalmışdır. Natəvanın Ağdamda “İmarət” deyilən ailəvi qəbiristanlıqdakı məzarı üzərinə obelisk vurulmuşdur. Onun bədii irsi 1937-ci ildən etibarən rus dilinə tərcümə olunaraq Moskvada, Leninqradda və Bakıda çıxan ədəbi jurnallarda, antologiyalarda işıqlandırılmışdır.

Əvvəlki nəşrlərdən fərqli olaraq, bu dəfə oxuculara təqdim edilən kitabda şairənin əlyazmalarına əsasən üslub və ifadə qüsurlarından təmizlənmiş, vəzn pozuntuları, beyt çatışmazlıqları nisbətən aradan qaldırılmışdır. Kitaba Natəvanın sonradan tapılan mənzumələri də daxil edilmişdir.

***Bəylər Məmmədov***

# Qəzəllər

Şuri-eşqin başıma axırı sövda gətirir,
Bu müşəxxəsdi ki, eşq aşiqə qovğa gətirir.

Tari-zülfündü məni böylə giriftar eləyib,
Nə gələ başıma, ol zülfi-mütərra gətirir.

Gül üzün görmək əgər mümkün olaydı bir dəm,
Hər zaman görmək onu nuri-mücəlla gətirir.

Qaşü göz, novki-müjə fitnə üçün cəm olmuş,
Ox atıb, tiğ çəkib, hər biri dəva gətirir.

Könlümü qarət edir öylə ki, tari-zülfün,
Rumə, sanki həbəşi ləşkəri-yəğma gətirir.

Naqənin varmı şüuru bula aşiq kuyin,
Onu Məcnunə tərəf cəzbeyi-Leyla gətirir.

Yusifin sanma, dübarə görə Yəqub üzün,
Mehr bazarına gər getsə, Züleyxa gətirir.

Yusifi Misrdə kər aldı Züleyxa nəqdə,
Nəqdi-can, aşıq olan, əldə mühəyya gətirir.

Sidqi-qəlb ilə nisar etmiş idin can nəqdin,
Natəvan, müjdə bu gün, qətlinə fərma gətirir.

Hicran ilə kim, dəməni-qəm dəstrəsimdir,
Şadəm ki, xəyalın, gözəlim, həmnəfəsimdir.

Gül ayrısı bir bülbüli-bimari qəminəm
Əfğan ilə bu guşeyi-möhnət qəfəsimdir.

Cismimdəki bimar könül naləsi, guya,
Bir qəmzədə məhmildən asılmış cərəsimdir.

Görmək üzünü qayəti-hər fikrü xəyalım,
Öpmək ayağın, mayeyi-şövqü həvəsimdir.

Xurşidə yetər başım əgər, çakərin olsam,
Bu rütbə ilə aləm əra fəxr bəsimdir.

Olmuşam dəhri-bəla içrə bu gün divanə mən.
Varmadım meyxanəyə, sındırmadım peymanə mən.

Əhdlərdən keçmədim, peymanları sındırmadım,
Lacərəm, bimehrlər tək olmuşam əfsanə mən.

Tərki-gülzar etmişəm bülbül kimi mən, ey rəqib!
Aqibət bir guşə içrə gəlmişəm əfğanə mən.

Eşqi-rüxsarında bir dəm vəsl ilə şad olmadım,
Hər tərəf seyr eylədim, düşdüm əcəb hicranə mən.

Qəm yükün çəkməkdən, ey dil, bir dəm azad olmadım,
Hərçi cəhd etdim, nə hasil, yetmədim cananə mən.

Duş gördüm kim, gəlibsən külbeyi-ehzanıma,
Ol zaman nəzr eylədim canü dilim qurbanə mən.

Görməyim dişvardır, billah, səni mən, ey rəqib!
Zülfə bağlı, qoy gedim axır düşüm zindanə mən.

Dövrü dönmüş dövr dövran etmədi kamimcə, ah!
Düşmənimdir, bilməzəm kim, netmişəm dövranə mən?

Yoxu varımdan qalan ancaq mənim bir can idi,
Natəvan, dəxi nedim, sərf eyləyim mehmanə mən.

Dilbəra, dərdi-dilimdən belə ünvan etdim
Ki, qəmi-hicrdə dil mülkünü viran etdim.

Mümkün olmaz mənə vəslin, bilirəm, həşrə kimi,
Ol səbəb məskənimi kuhu biyaban etdim.

Eşq sultanı mənim qətlimə fərman gətirib,
Etmədim tərki-vəfa, taəti-fərman etdim.

Səri-kuyində qoyub başimi, bir uf demədim,
Səri-sidq ilə canimi qurban etdim.

Ya təbib, adını tərk eylə, təbabət etmə!
Ya mənim dərdimi tap, gör niyə tüğyan etdim?!

Yoxdu bir kimsə məgər dərdimi bilsin, ya rəb!
Ki, mən öz qanim ilə dərdimə dərman etdim.

Dərdi-hicrində gözüm yaşı tutub dünyanı,
Nuh tufanı kimi gör ki, nə tufan etdim.

Natəvan, etmədi ol səngdilə naləm əsər,
Gecə-gündüz nə qədər naləvü əfqan etdim.

Müşküldür, mən kənarə düşəm kuyi-yardən,
Dişvardır ki, əl üzəm o gülüzardən.

Ya rəb, nolar ki, yar gələ mərgi-aşiqə,
Can qüssədən rəha ola, dil intizardən.

Şaxi-gül üzrə əylənib ol şahmari-gur,
Əmr eyləyir ki, çək əlini zülfi-yardən.

Hicr atəşin arayə dəxi salma, ey rəqib!
Mümkün olurmu ayrıla pərvanə nardən?

Hüsnün xəyalıdır səbəbi-şövqi-xatirim;
Qəmzəndi qoymayan qurtarım ahü zardən.

Qəmdən səvayi qəm günü qəmxar yox, könül!
Şad ol qəzayə, hər nə yetə qəmgüsardən!

Rahi-vəfadə canü cahan verdi Natəvan,
Ta həşr olunca çəkməz əlin etibardən.

O müjgani-siyəhnovkin xədəngi-yarə bənzətdim,
Xətadır, çeşmi-məstin ahuyi-tatara bənzətdim.

Gözün mərdümləri sərməst olub, tökmək dilər qanım,
Düzübdür hər tərəf peykan, əcəb xunxarə bənzətdim.

Çəkilmiş güşəyə bülbül, fəğanü nalələr eylər,
Düşən gül üstə damə əndəlibi-zarə bənzətdim.

Tutub gəc gərdənin hər ləhzə olmuş məhvi-nəzzarə,
Xəyali-yar ilə heyran baxan naçarə bənzətdim.

Görüb tərfi-binaguşündə çin-çin zülfi-müşkini,
O gənci şayigan üstə yatan şahmarə bənzətdim.

Deyirdim kim, nədəndir  Qeys olub divaneyi-aləm?
Cünun sərriştəsin ol türreyi-tərrarə bənzətdim.

Cəfayi-dəhridə gördüm edərdi şikvə bir müztər,
Səsindən Natəvani-bidilü əfkarə bənzətdim.

Könül qanın gözümdən navüki-qəmzən rəvan eylər,
Məsəldir mərdüm içrə məst olan, əlbəttə, qan eylər.

Xətadır, gər, desəm ol nərgisi-məstin xəta etməz,
Yəqinimdir, əgər, qan etmiş olsa, qanə qan eylər.

Əgər, qaşü gözün xişm eyləsə, ey mahi-no bir dəm,
Könüldə fitnələr peyda olur, hər dəm fəqan eylər.

Nəhani baxmağından iztirabi-könlüm əfzundur,
Nə cadudur ki, hər dəm kəşf əsrari-nəhan eylər.

Uçub mürği-dilim, qonmuş səri-zülfi-pərişanə,
Bəla sərmənzilində, gör, nə qafil aşiyan eylər?

Üzün dövründə zülfün küfrə bənzər, tutmuş imanı,
Hərami xeylini kim böylə gəncə pasiban eylər?

Səba zülfün nəsimin gər, aparsa vadiyi-Çinə,
Xütən səhrasını müşkin edib, ənbərfişan eylər.

Rəqibi görməsin bir nəşə, ya rəb, cami-işrətdən
Ki, məndən bixəbər ol şuxi məstü sərgiran eylər.

Əgər, qəhr aləminə gəlmiş olsa ol məhi-təban,
Nə etsə, canə minnət, çünki yari-mehriban eylər.

Deyirlər dərdi-eşqin adəm öldürməz, dürüstdür bu,
Və lakin ömr eylər, mən kimi zarü Natəvan eylər.

Rəqib töhməti etdi məni cüda, ey dust!
Bu zülmü gördü rəva, görməsin səfa, ey dust!

Əgər ki, tiğ çəkib öz əlinlə öldürəsən,
Deyil mənə bu cəfa, bilməzəm cəfa, ey dust!

Kənardən baxaram mən həqir həsrətlə,
Bu yaxşı şiyvə deyil, olma bivəfa, ey dust!

Rəqibə xoşdur həmişə, məni kənar etsin,
Fəda o himmətinə, olma sən riza, ey dust!

Nə tab hicrinə vardır, nə taqətim səbrə,
Bunun əlacı ki, mümkün deyil mana, ey dust!

Sənin bu hüsnünə layiq ki, heyf, əhdin yox,
Nə qədər səy elədim, tapmadım dəva, ey dust!

Bəli, bu hicrin ilə mən həmişə xoşhaləm,
Görək ki, neyləyəcək, axırı qəza, ey dust!

Rəqib görməsin, Allah, visali-işrətini,
O səpdi tuxmi-fərağı, görüb rəva, ey dust!

Çağırram Allahımı hal, Natəvan ilə
Məgər ki, tez verə həq düşmənə cəza, ey dust!

Xocəstə bülbüli-xoşnitq, xoşzəban, getmə!
Mənə tərəhhüm elə, qoyma natəvan, getmə!

Bu gülşən içrə, gülüm, novşükuftə bir gülsən,
Sənə hənuz deyil mövsimi-xəzan, getmə!

Məni-fələkzadəyə rəhm qıl, səni tari,
Qaşın kimi qədimi eyləyib kaman, getmə!

Sənin bu gözlərinə gözlərim ola qurban,
Bir-iki dəm mənə ol bari həmzəban, getmə.

Yeni nümüvv eləyən sərvvəş, dayan bari,
Sirişkimi qoy edim payinə rəvan, getmə!

Mənə ki, guşeyi-çeşm ilə bir nəhan baxdın,
Tez öldürər məni bu mehnəti-nəhan, getmə!

Düşə əyaqdən ol sərvi-qamətin, billah,
Qiyaməti gətirər başimə əyan, getmə!

Bu cismi-zarım  üçün məhz ruhsən, axır,
Tutar qərar məgər, ruhsuz rəvan, getmə!

İki gözüm işığı, şahzadə simbərim,
Məni də yoldaş apar, qoyma natəvan, getmə!

Yenə ya rəb, nə qəmgindir mənim bu şad olan könlüm,
Rümuzi-eşqdən agah olub, ustad olan könlüm.

Görübdür yari əğyarə olubdur məhvi-nəzzarə,
Edibdir sinəsin parə, mənim abad olan könlüm.

Niyə peymanədən keçdin, niyə zəncirdən qaçdın?
Nədəndir çöllərə düşdün, mənim bərbad olan könlüm?

Fəraqin ruzi-məhşərdir, sərasər möhnəti-qəmdir.
O zülfün kimi dərhəmdir, mənim azad olan könlüm.

Baxın bu Natəvan zarə, günü bəxtim kimi qarə,
Gəzər Məcnun tək avarə, mənim naşad olan könlüm.

Yıxıb bu könlüm evin, eyləyib viran, getmə!
Yoxumdu tabü təvan firqətə, cavan, getmə!

Fəda olum sənə mən, səndən ayrıla bilməm,
Yəqin, fərağın edər qəddimi kəman, getmə!

Səninlə rövşən idi qəlbim, ey gözüm nuri!
Güman ki təng ola bu canıma cahan, getmə!

Boyun bəlasın alım, sərv tək yıxılma, oğul,
Doyunca görməmişəm getmə bir zaman, getmə!

Çıxaydı kaş gözüm, görməyəydi hicranın,
Ölüncə, bil, edərəm naləvü fəğan, getmə!

Sabahadək oturub çəkmişəm çəfalərini,
Boyüm bərabərisən indi, əlaman, getmə!

Yəqinən əl çəkəcək dostü aşinalərdən,
Dəli kimi düşəcək çöllərə anan, getmə!

Səninlə kim, açılıb qəlbimin şükufələri,
Mürüvvət eylə, əzizim, edib xəzan, getmə!

Di yumma gözlərini, qoy görüm doyunca səni,
Gözümdə cari edib əşk, həm rəvan, getmə!

Tərəhhüm eylə mənə, dərdü mehnətim çoxdur,
Qoyub bu hicri-bəla içrə Natəvan, getmə!

Əgərçi xoşdu mənə ətri, həm səfası gülün,
Cəfası çoxdu, nə hasil ki, yox vəfası gülün.

Cəfayi-xarı görüb, köçdü bağidən bulbül,
Görən kim oldu bu gülşəndə aşinası gülün?

Xəzanə meyl elədi, almadı vəfa nəzərə,
Yetişdi bülbülə çox-çox qəmü-cəfası gülün.

Tökür sirişk əvəzində gözüm üzə al qan,
Olubdu, çünki könül zarü mübtəlası gülün.

Yazılsa nöqtəbənöqtə, deyilsə hərfbəhərf,
Qurtarmaz həşrə qədər hali-macərası gülün.

Üzari-alinə baxdıqca qan olur dillər,
İlahi, həddən aşıb möhnəti bəlası gülün.

Xəta yoluna düşüb, bülbülə cəfa qıldı,
Xətayə saldı özün aqibət, xətası gülün.

Cahanda zərrə qədər olmaz, ey könül, xəndan
Ki, xuni-bülbül əgər olmasa qəzası gülün.

Tutardı, xuni-cigərdən olaydı gər sirab,
Günəş tək hər tərəfi, Natəvan, ziyası gülün.

Fəriştətələtü məhruyi-xoşliqa, getmə!
Cəmalı qəlbimə daim verən ziya, getmə!

Məsih tək, nəfəsi mürdəni edən ehya,
Dəhəni içrə olan çeşmeyi-bəqa, getmə!

Əsiri-danə olub, dami-zülfə düşdü könül,
O növ silsilədən kim edər rəha, getmə!

Mərizi-eşq olana neyləsin təbibi-zaman?
Səvayi-şəhdi-ləbin yoxdu bir dəva, getmə!

Kəmali-şövqlə qoy eyləyim Xəlilasa,
O xaki-məqdəminə canımı fəda, getmə.

Əgər fəraqini görsəm, görən gözüm çıxsın,
Gözümdə xaki-rəhin eyni-tutiya, getmə!

Təvafi-kuydə səyim necə olur hasil?
Ona ki, zikri-ləbin verməsə səfa, getmə!

Xəzinə gövhəri tək olmusan nəhan gözdən,
Vücudunu eyləyib məhz kimiya, getmə!

Rəqib tənəsi, hicran qəmi olur müşkül,
Bu Natəvanə görüb onları rəva, getmə!

Nədir murad, fələk etməz imtahan tərkin?
Güli-füsürdə qılır cövri-gülsitan tərkin.

Neçə qərinə keçib, çəkməz əl cəfasından,
Budur məramı, qıla sərv busitan tərkin.

Fəraqə düşmüşəm, olmuş mudam işim əfğan,
Məgər gül olmasa, bülbül edər fəqan tərkin?

Cahani tərk edərəm, cümlə dövlətü varın
Mahaldır eləmək böylə nocavan tərkin.

Çəkib fəraq, olalı dərdü qəm giriftarı,
Sirişkimin, olumu eyləmək rəvan tərkin?

Nə oldu, gənci-rüxün eylədi nəhan gözdən!
Xəzinə sahibi eylərmi pasiban tərkin?

Qədim rəsmdi kim, mülki-dil olur viran,
O dəm ki, məmləkətin qılsa xosrovan tərkin.

Nə bais oldu ki, tez kəsdi məndən ünsiyyət,
Qərarü səbrü təvan etdi Natəvan tərkin?!

Nə yaxşı munis idi, heyf, nagəhan getdi,
Məni bu möhnət əra qoydu əlaman, getdi.

O sərvi-nazdan ayrı baxarmı sərvə gözüm,
Hilal tək qəddimi eylədi kəman, getdi.

Unutdu güllərini, qıldı xaniman tərkin,
Nə baxdı yarlərə, çəkdi əlaman getdi.

Nə oldu ariz əya, bağiban, bu gülşəndə,
Açılmadı bu bahar gülləri, xəzan getdi?

Nə tapdı ləzzəti-işrət, nə gördü gülzarı,
Bahar fəslində, yaran bu novcavan getdi.

Məni bu möhnət əra qoydu didəsi giryan,
Bəlayi-hicrə salıb, qoydu bağrı qan, getdi.

Məzarın üstə gəlib əylənim dəmadəm, oğul,
Deyərmisən ki, nə növ ilə Natəvan getdi.

Nə güldür kim, qəmində ömrdən bizardır bülbül[1]?
Olub hər bağiban gülzarə məhrəm, xardır bülbül.

O gül kuyində əz bəs ki, fəğanü nalələr çəkdim,
Fəğanü-naləmin təsiri var, bimardır bülbül.

Vəfasız anlayıb gül əhdini, ondan fəğan eylər,
Xəzan taracını bilmiş, əcəb huşyardır bülbül.

Driğa kim, olub zağü zağan yığnağı bu gülşən,
Qalıb avarə, hər dəm həsrəti-gülzardır bülbül.

Tutub hər xar əli bir gülbüni-növrəstə damənin,
Keçib əyyami-işrət, qüssədən əfkardır bülbül.

Pərü balı şikəstə, Natəvani-zarü dilxəstə,
Yetibdir canə qəmdən, talibi-qəmxardır bülbül.

[1]Şeir "Bülbül" başlığı ilə yazılmışdır.

Nə oldu bülbülə kim, qıldı gülsitan tərkin?
Unutdu güllərini, etdi aşiyan tərkin.

Kim ilə munis olubdur, kimə salıb meylin?
Rəvamıdır eləmək yari-mehriban tərkin?

Könül ki, xari-cəfadan həmişə nalandır,
Yaralıdır, eləməz naləvü fəğan tərkin.

Çirağі-rövşəni-bəzmi-ümid ikən, ya rəb,
Səbəb nə oldu, o məh etdi həmzəban tərkin?

Baxarmı qeyrilərə çeşmi piri-Kənanın?
Edərmi aşıq olan Yusifi-zaman tərkin.

Sənin fəraqinə canımda tabü taqət yox,
Təni-füsürdə, əziza, edərmi can tərkin?

Cahanı tərk eləməz kim ki, aşiqi-candır,
Həyatdan üzüb əl, eyləməz cahan tərkin.

Qərari-canım idi, kəsdi can təvanəsini,
Üzüldü qüvvəti-can, etdi Natəvan tərkin.

Zəmanə saldı əcəb möhnətü məlalə məni,
O mahrudən iraq verdi qəm zəvalə məni.

Tükəndi tabü təvan, ey xudayi-ləmyəzəli!
Ya tez bu canımı al, ya yetir vüsalə məni!

Sənə nə qədri dedim, rəhm qıl mənə, getmə!
Gəl indi gör ki, fəraqın salıb nə halə məni!

Nə vaxtadək qəmi-hicrində ahü zar çəkim?
Tərəhhüm eylə, gətir sən də bir xəyalə məni!

Kəsildi səbrü qərarım, fəraqə tabım yox,
Rəvadı təngə gətirsin bu ahü nalə məni?

Alıbdı əqlimi sərdən, qərarımı dildən,
Edib bəlayə fələk, gör necə həvalə məni.

Təəccübəm ki, neçün rəhmə gəlmədin, zalım?!
Fəraq oduna yaxıb salmısan bu halə məni.

Nə yaxşı günlər idi kim, səninlə munis idim,
Zəmanə indi edib sinədağlı lalə məni.

Vüsalə yetməyibən zarü Natəvan qaldım,
Edib fələk yenə həsrət o məhcəmalə məni.

Hicran edibdi könlümü bərbad, ağlaram,
Çoxlar tutar bu halıma irad, ağlaram.

Könlüm evi  xərabtər oldu fəraqdən,
Vəslin bu mülkü etmədi abad, ağlaram.

Dami-fərəqdə ki, çox ilhahü-ləbələr
Etdim, nə sud, etmədi azad, ağlaram.

Nə hicri-yarə taqətü halım vəfa edər,
Nə vəslə çatmaz əl, edibən dad, ağlaram.

Çəkdikcə cövri-hicrini könlüm fərəh tapar,
Şadam bu əmrə, bəs niyə naşad ağlaram?

Kuyində məhrəm etdi rəqibi səfa ilə,
Qəhr ilə etmədi məni həm yad, ağlaram.

Hicrində xoşdur ağlamaq ahü fəğan ilə,
Səs verməsə bu naləvü fəryad,  ağlaram.

Çün Natəvani-zari-zəifəm fəraqdan,
Bu gündə yar etməsə imdad, ağlaram.

Səninlə, ey büti-məhruy, mehriban mən idim,
Ənisi-munis idim, yari-həmzəban mən idim.

Cəmalının gülünə nişi-xar tapmadı əl,
Ki, hüsn bağına peyvəstə bağban mən idim.

Səriri-nazdə sən xabi-naz edən gecələr,
Səbahədək səri-kuyində pasiban mən idim.

Səbəb nə oldu məni hicrə mübtəla qıldın?
Nisar edən səri-kuyində cismü can mən idim.

Rəvadı bunca çəkim dərdi-firqətin, axır,
Vüsal günləri, ey dust, kamiran mən idim.

Bəla xədənginə, neylim, məni nişan qıldın,
Rəqib tənəsinə xatiri-nişan mən idim.

Səlamət əhli nə bilsin nədi məlaməti-eşq?
El içrə şöhrəti-eşq ilə dastan mən idim.

Qəmi-fəraq ilə könlüm olanda dərhəmi-zar,
Ümidi-vəsl ilə hər ləhzə şadman mən idim.

Driğ yanmadı yar, görmədi fəraq odunu,
Neçün güman eləməz eşqdə yanan mən idim.

Həmişə vəslin ilə şadi-xürrəm olmuşdum,
Bu hicr oduna yanan zarü Natəvan mən idim.

Yanar canım, oğul, daim sənin nari-fərağında,
Necə pərvanələr hər dəm yanar şəmin ayağında.

Güli-ruyun həvasilə çıxar əflakə əfğanım,
Odur bülbül nəvası gül fəraqü iştiyaqında.

Sənin vəslin xəyaliylə gözü-könlüm gəzər daim
Ki, çün Məcnuni-sərgəştə, gəzər Leyla sorağında.

Nəhali-qamətin zikri mənim virdi-zəbanımdır,
Dəmadəm naleyi-qumri oxur sərvin budağında.

O şirin ləblərin şövqü günü-gündən olur əfzun,
Əgər Fərhad tək yüz il dolansam hicr dağında.

Hərisəm bəs ki, ol şirinzəbanın zikrinə hər dəm,
Olur xoş nitqli tuti, şəkkər olsa damağında.

Sənin hicrin odu, Abbas, dəxi, çıxmaz ki, canımdan,
Səməndər tək yanar daim anan nari-fəraqında.

Uçub şahbaz tək könlüm, gəzərdi vəsl bağında,
Pərü balını sındırdı fələk, bu pir çağında.

Gözümdə tardır dövran, məhü xurşidi-nurəfşan,
Məhaq içrə olub pünhan, sanasan çərx tağında.

Sirişkim birlə kim, xali deyildir qamətin gözdən,
Nə tez düşdü təravətdən o sərvin su qırağında.

Nolaydı kur olaydım, görməyəydim gül kimi cismin,
Qalıbdır tirə xak içrə, məzarın gün qabağında.

Könüldə həsrətim qaldı, həzaran heyf kim, bir dəm
Səni ta görmədim xürrəm, oğul, damad otağında.

Nədəndir intizar ilə o şəhla göz baxar heyran,
Gözüm ol gözlərə qurban, baxar ahu sayağında.

Həmişə zarü dilməhzun, tökər gözdən sirişki-xun,
Pərişan hal ilə daim, qəmü mehnət bucağında.

Qəmi-hicran edib tüğyan, qalıbdır Natəvan suzan,
Rəvan əşki-bəsər hər yan olan gözlər bulağında.

Fəraq ilə işimi ahü zar edən sən idin!
Yıxan bu qəlbim evin, tarü mar edən sən idin!

Sənin yolunda bəlalar qəbul edən mən idim,
Mənim xilafıma hicr ixtiyar edən sən idin!

Sirişki-çeşmimi hər kəs görə bilər derdim,
Bu sirri aləm əra aşikar edən sən idin!

Məni bu qəm yükünü çəkməyə rəva bildin,
Salıb məlamətə, həm şərmsar edən sən idin!

Xəzani-hicrdən asudə, vəsldən xoşdil,
Fəzayi-könlümü rəşki-bahar edən sən idin!

Qübari-xatiri-qeyr olduğum, küdurət imiş,
Salıb ayağa vücudum qübar edən sən idin!

Səbəb nə oldu ki, peymanü əhdi sındırdın?
Vəfavü əhdə əzəl etibar edən sən idin!

Bu qəmli könlümü gəh şad edən vüsalindən,
Qəmi-fəraqlə, gahi fikar edən sən idin!

Gələndə mürği-dilim qəm çölündə pərvazə,
Xədəngi-qəmzə ilə həm şikar edən sən idin!

Dəmadəm ah çəkib yanmışam fəraqində,
Məni bu rəncü bəlayə düçar edən sən idin!

Tükəndi ömr, driğa, qəmi-fəraqində,
Ümidi-vəslə məni intizar edən sən idin!

Əzizi-aləm idi Natəvan vüsalinlə,
Çəkib məzəlləti-həcranə, xar edən sən idin!

Səhərgəh nagəhan gördüm, dili-zarım nəhan ağlar,
Sirişki-al ilə hər dəm çəkər ahü-fəğan ağlar.

Sual etdim, nə baisdir çıxıb əflakə əfqanın,
Tökər xuni-cigər çeşmin, baxar hər yan, rəvan ağlar.

Könül huşyar imiş məndən, dedi badi-səbadan sor,
Sərasimə, qalıb heyran, çəkər ah, əlaman ağlar.

Səbadan sordum əhvalı ki, ey hər halidən agah!
Nə vaqedir, səni tari, olub dil natəvan, ağlar?!

Dəxi badi-səba gördüm, bəsi dilgiri-nalandır,
Təkəllüm yox bəyan etsin, qalıbdır bizəban, ağlar.

Tutulmuş nitqi-göftarı, dedi: - Ey natəvan xəstə,
Necə şərh eyləyim hali ki, cümlə insü can ağlar?

Gəzərdim bağı-səhrani, pərişan hal ilə, gördüm,
Dəyib badi-xəzan sərvə qurutmuş, bağban ağlar.

Zəban sözdən qalıb xali, tərəhhüm etdim əhvalı,
Gözümə tar olub dünya, dəmadəm cismü can ağlar.

Bəli, gər gül budağınə, toxunsa tündi-badi-dəhr,
Pərişan olsa gül bərgi, edər bülbül fəğan, ağlar.

Pozuldu rövnəqi-gülşən, dağıldı zinəti bağın,
Düşüb tabü təravətdən, gül ağlar, gülsitan ağlar.

Düşəydi çərx gərdişdən, olaydı dəhri-dun viran,
Bəşər tab eyləməz hərgiz, zəminü asiman ağlar.

İlahi, görməsin gözlər yaman gündə belə günlər,
Aman verməz qəmü möhnət, hamı pirü cavan ağlar.

Firavandır qəmim, şərhin bəyan etmək deyil mümkün,
Yaz, ey müstofeyi-aləm, müdam əhli-cahan ağlar.

Mədad olsa əgər dərya, qələm olsa əgər əşcar,
Başa yetməz qəmim şərhi, qələm hər ləhzə qan ağlar.

Tənim rəncur, dil xəstə, dəxi bir qəmküsarım yox,
Kimə kim, şərh edim dərdim, gedər tabü təvan, ağlar.

Bəli, çün kövkəbi-tale qibal etsə fəlak içrə,
Nühüsətlə qiran eylər, olur gün gər yaman, ağlar.

Bu, divani-qəzavətdir, müqəddər ruzi-əzəldən
Ki, hər dəm növbənöv qəmlər yetər, bu natəvan ağlar.

Kəsilmiş taqətü təbim, başımdan əql məhv olmuş,
Gözüm əşki rəvan zahir, könül daim nəhan ağlar.

Dəvasız, dərdi-bidərman qalıb məhzuni-sərgərdan,
Ərəstü ilə həm Loğman, Fəlatuni-zaman ağlar.

Tamamən dərdü qəmlərdən, fərağın dərdi əfzundur,
Onunçün Natəvan hər dəm olub nalan, qan ağlar.

Nədəndir səndə əylənməz güli-dövran, xudahafiz!
Mənə həm gəldi getmək növbəti, yaran, xudahafiz!

Cahanda olmadı bir dəm görəydim mahi-rüxsarın,
Nə qədri cəhd qıldım olmadı imkan, xudahafiz!

Neçün sən tərki-mehr etdin, vəfadan əl çəkərlərmi?
Məgər əhdə vəfa etməz şəhi-xuban, xudahafiz?

Rəqiblər qoymadı yetsin əlim bir daməni-vəslə,
Xəyalinlə keçirdim ömrümü nalan, xudahafiz!

Nə səbrü taqətim qaldı, nə əqlü huş bilmərrə,
Onunçün çeşmi-pürxunim olur giryan xudahafiz!

O gün kim, məhşəri-kübra olur, vəhm et o gündən kim,
Tutam damanını, dildən çəkəm əfğan, xudahafiz!

Üzüb əl Natəvan candan ki, ta ümmidi-vəsl etməz,
Dili-qəmgin, cigər pürxun, olub suzan, xudahafiz!

Bahar Əyyamıdır, açıldı güllər, ey cavan sənsiz!
Təəccübdür, nədən divanə olmaz Natəvan sənsiz?

Şamadət eyləyir düşmən mənə hər dəm və hər saət,
Mərəz artır dəmadəm, varə-varə, hər zaman sənsiz.

Nə ümidim vüsalə, nə fəraqə tabü taqət həm,
Gözümdə tirəvü tar oldu, billah, bu cahan sənsiz.

Sən əyləş hur ilə, eylə həmişə eyşü işrət kim,
Dəmadəm mən çəkim, dildən edim ahü fəğan sənsiz.

Yetişməz başə, Abbas, ömrüm axır bir tamam olsun,
Keçər hər bir dəqiqə ildən artıq, əlaman sənsiz.

Bu gün eydi-şərif oldu, məgər sən bixəbərsənmi?
Güman etmə ki, işrət içrə əylənsin anan sənsiz.

Güli-ruyindən ayrı neylərəm mən gülsitan seyrin?
Edər bülbül kimi nalə bu zarü Natəvan sənsiz.

Gəcrəvişdir bu asiman, əfsus!
Bivəfadır cəhanü can, əfsus!

Nə yaman dağ imiş oğul dağı,
Mənə üz verdi imtahan, əfsus!

Göz evin qoydu nagəhan xali,
Oldu ol mərdümin nəhan, əfsus!

Mehrini kəsdi mən bəlakeşdən,
Oldu xak ilə mehriban, əfsus!

Ey gözüm nuri, hasili-canım,
Çəkərəm sənsiz əlaman, əfsus!

Sərv qəddin düşübdü xak üzrə,
Sənə bid oldu sayəban, əfsus!

Səni ləbtəşnə yad edəndə, olur
Göz yaşım cuy tək rəvan, əfsus!

İzzətü cahü dövlət içrə səni
Görmədim bircə kamran əfsus!

Arizuvü həvəs xəcil səndən,
Olmadın heç şadman, əfsus!

Səni ağuşə çəkdi xaki-siyah,
Əşkdən bağrım oldu qan, əfsus!

İtirib bir şükuftə qönçəsini,
Qaldı sərkəştə Natəvan, əfsus!

Mənə bədtərdi düzəxdən, əzizim, gülsitan sənsiz!
Olur hər sünbili-süsən gözümdə bir tikan sənsiz!

Vəfasız dəhri-dun içrə əgər şəkkər qəzam olsa,
Olur zəhri-həlahil, tutiyi-şirinzəban sənsiz!

Səbəb nə oldu ki, məndən mehr kəsdin, mehriban bülbül!
Olub qumri kimi ku-ku yenə virdi-zəban sənsiz!

Xoş ol günlər ki, nəslindən edərdim kami-dil hasil,
Olunca mübtəla hicrə, çıxaydı kaş can sənsiz!

Əlif tək sərv qəddin, can içində getdi, qəmxarim!
Necə aram tutsun, bilməzəm, cism içrə can sənsiz?

Həsari-könlümə səngi-məlamət çərxdən yetdi,
Ribati-köhnədir, məddi-nəzərdə xaniman sənsiz.

Çıxar sübhü məsa əflakə du di-şöleyi-ahim,
Zəbani-halimə giryan olur kərrubiyan, sənsiz!

Nəzər qıl, qönçeyi-lalə misalı bir-biri üstən
Çəkilmiş sinəmə, gör kim, necə daği-nəhan sənsiz!

Ey əhli-dil, Fənanı qoyun barı ağlasın![1]
Əğyarə çünki yar olub yarı, ağlasın!

Mən etmək aşiqin nə rəva ahü zardən?
Çox dərdi var, qoyun ki, sizi tari, ağlasın!

Gizlin xəyalı var ki, belə ahü zar edər,
Öz halinə qoyun bu diləfkarı, ağlasın!

Bülbül nəvası bisəbəb olmaz bu bağdə,
Gördükcə hər zaman gül ilə xarı ağlasın!

Hicrani-yar oldu səbəb ağlamağına,
Ya rəb, görüm həmişə səbəbkarı, ağlasın!

Vursun əlilə başına hər şam, ta səhər,
Yarı qəm içrə olmadı qəmxarı, ağlasın!

Şami-fəraqdə qalıban zarü xəstədil,
Saldıqca yadə ol məhv-rüxsarı, ağlasın!

Səsləndi Natəvanə ki, ərbabi-qəm tamam,
Hali-Fənayə cəm olub, elcarı ağlasın!

---

[1]Şeir şairlər məclisinə müraciətnə yazılmışdır.

Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı!
Nə də bu aləm əra dil müqəyyədi-qəm olaydı!

Nə hicr atəşinə odlanıb yanardı dilim ki,
Nə eşqin içrə könül boylə şadü xürrəm olaydı!

Nə sərv qəddin olaydı, nə həsrətinlə gözüm kur,
Nə ruzgari-fəraqində qamətim xəm olaydı!

Nə bəhr olaydı, nə ümman, nə boylə göz yaşı cari,
Nə gül üzündə, ilahi, bu növ şəbnəm olaydı!

Nə gül olaydı, nə gülzari-gülşənin dəxi seyri,
Nə xari-möhnəti-bülbül, səninlə möhkəm olaydı!

Nə Misr olaydı, nə Kənan, nə Həzrəti-Yəqub,
Nə xar olub qəmi-hicranda, qərqi-matəm olaydı!

Nə çah olaydı, nə zindan, nə karvan güzəri,
Nə Yusifi bu bəlada görən bir adəm olaydı!

Nə bəzm olaydı, nə bazari-Yusif əhvalı,
Nə rəhgüzərdə Züleyxa qəmlə həmdəm olaydı!

Nə ah olaydı, nə əfsus, nə parə-parə könül,
Nə Natəvanın, ilahi, həvəsi dərhəm olaydı!

Ey güli-süsən, səni bir natəvan çəkmiş məgər?
Bir məhi-aliməqamə bəndüvan çəkmiş məgər?

Boylə tarik rənglə girmiş o, qəsrə bilməyib,
Sililər rüxsarına ol bağiban çəkmiş məgər?

Çünki bu gülşəndə sərgərdan gəzənlər çoxdu, çox,
Ol səbəbdən pasibani-xoşnişan çəkmiş məgər?

Rəngi-buyindən, müzəyyəndir büsati-bəzmi-gül,
Xameyi-nəqqaşi-qüdrət gülsitan çəkmiş məgər?

Bu qədər lütfü nəzakət kim, sənin hüsnündədir,
Lütfü-təbilə səni ol Natəvan çəkmiş məgər?

Səni kimdir sevən bica, qərənfil?
Sənə mən aşiqi-şeyda qərənfil!

Səni  gülşən əra aşüftə gördüm,
Yəqin bildim dutub sevda, qərənfil!

Belə pəjmürdə hal ilə durubsan,
Düşər güllər əra qovğa, qərənfil!

Driğa kim, vəfasızdır bu gülşən,
Gedər bu tələti-ziba, qərənfil!

Üzündən pərdəyi-nazın kənar et!
Unutma aşiqi, haşa, qərənfil!

Fələk rənginə bənzər bu bənövşə,
Tutub səhraları hərsu, bənövşə!

Neçün gülşənlərin tərkin qılıbsan?
Düşübsən çöllərə dilcu, bənövşə!

Belə qəddin bükülmüş, pirlər tək,
Deyirsən sübhü şam "yahu", bənövşə!

Səni şövqü bahar aşüftə qılmış,
Çəkər aşiq olan qayğü, bənövşə!

Dilər ətrin könül badi-səbadan,
O zülfi-yar tək xoşbu, bənövşə!

Özün eşq atəşinə vurmağa dilşad pərvanə,
Bəli, bir dəfə yanmaqdan olur azad pərvanə.

Görür məclislər içrə şəmi hər şəb yari-əğyarə,
Onunçun yanmağın tərhin qılır bunyad pərvanə.

Sənə ey şəm, töhmətlər qalır məşuqələr içrə,
Əgərçi xirməni-ömrün qılır bərbad pərvanə.

Demə məşuqi-bipərvadır şəmə kim, məlamətdən
Verib can sübhətək, oldu vəfadan şad pərvanə.

Bilib şəmin vəfasın, cismi-canın atəşə yaxdı,
Qəmi-hicri-dəmi-vəslində etdi şad pərvanə.

Cəfayi-hicrdən canə yetib şövqi-vüsal ilə,
Yanıb şəmin oduna, etmədi fəryad pərvanə.

Yanar çün Natəvan xəstə müdam ol atəşi-qəmdən,
Səbur ol, eylə adət, şiveyi-ustad, pərvanə!

Qoyubdur intizarında, neçin gəlməz, neçin gəlməz?
Həmişə ahü zarında, neçin gəlməz, neçin gəlməz?

Üzüldüm karivanımdan, əl üzdüm xanimanımdan,
Fələk incir fəğanımdan, neçin gəlməz, neçin gəlməz?

Gedibdir qafiləsalar, olubdur gözlərim xunbar,
Nə bir yarü, nə bir qəmxar, neçin gəlməz, neçin gəlməz?

Könüldə ahü zarım var, nə səbrü, nə qərarım var,
Deməz bir dilfikarım var, neçin gəlməz, neçin gəlməz?

O zülfi-nərgisi-məstə könül çoxdandı pabəstə,
Məni hicran edib xəstə, neçin gəlməz, neçin gəlməz?

Səri-kuyin gəzər könlüm, güli-ruyin sevər könlüm,
Vüsalın çün dilər könlüm, neçin gəlməz, neçin gəlməz?

Alıbdır canımı hicran, olubdur gözlərim giryan,
O məhvəş, nazənin canan, neçin gəlməz, neçin gəlməz?

Mənə hicran məşəqqətdir, fərağin dərdü möhnətdir,
Nigarım xeyli müddətdir neçin gəlməz, neçin gəlməz?

Əzizim, göz yaşım qandır, işim fəryadü əfqandır,
O yarım harda mehmandır, neçin gəlməz, neçin gəlməz?

Yanar canım fərağından, tutar könlüm sorağından
Ki, çıxsın yar otağından, neçin gəlməz, neçin gəlməz?

Əlimdə ixtiyarım yox, gedib səbri-qərarım yox,
Yanımda gülüzarım yox, neçin gəlməz, neçin gəlməz?

Səba, ol məhliqa dilbər, alıbdır canımı yeksər,
Könül ancaq onu istər, neçin gəlməz, neçin gəlməz?

Yetibdir ərş üzə dadım, tutub dünyanı fəryadım,
Mənim ol sərvi-azadım neçin gəlməz, neçin gəlməz?

Qalıbdır Natəvan nalan, gecə-gündüz olar giryan,
Onun yox dərdinə dərman, neçin gəlməz, neçin gəlməz?

Bilən bu dərdimi yoxdur bu halətdə, bu halətdə
Tutubdur könlümü möhnət bu firqətdə, bu firqətdə.

Neçün əhvalımı bilməz o mahi-mehriban, ya rəb?!
Nədən heç dadıma yetməz bu müddətdə, bu müddətdə?

Gedibdir taqətim dizdən, tükənmiş nur həm gözdən,
Neçün ülfət kəsib bizdən bu qürbətdə, bu qürbətdə.

Deyin yari vəfadarə, o çox uymasın əğyarə,
Kərəm qılsın məni-zarə bu xiffətdə, bu xiffətdə.

Ataram sərü səmanı, dağıdaram bu viranı,
Yolunda qoymuşam canı bu töhmətdə, bu töhmətdə.

Gözümdə intizarım var, dilimdə iztirabım var,
Rəqiblər yar, mən əğyar bu qəflətdə, bu qəflətdə.

Vətəndən ayrılıb getdim, eşq rəhində seyr etdim,
Hicrində mən cana yetdim bu həsrətdə, bu həsrətdə.

Məni qoydu fərağında, həmişə ahü zarında,
Ömrümün axır çağında bu üsrətdə, bu üsrətdə.

Dolandım hicr dağında, əyildim qəm otağında,
Xəyal hüsnün sorağında bu saətdə, bu saətdə.

Xəyalım yar ilə getmiş, dilim hicr ilə odlanmış.
Cəsəd həm Natəvan qalmış bu zillətdə, bu zillətdə.

Varımdı sinədə dərdü qəmi-nəhan, ölürəm,
Fəda olum sənə, gəl eylə imtəhan, ölürəm.

Fəraqdan gecələr yatmaram səbahə kimi,
Xəyali zülfünə bağlı gedibdir can, ölürəm.

Bahari-hüsnün əra gör necə xəzanəm mən,
Bahar laləsi tək bağrım oldu qan, ölürəm.

Vərəq-vərəq dilü can hicrin içrə odlaşdı,
Misali-kəncəfə sədparə oldu can, ölürəm.

O xaki-payini mən aşiyanə etmiş idim,
Vətəndən ayrı düşüb indi laməkan, ölürəm.

Dedin ki, çək əlini damənimdən, əl çəkdim,
Tərəhhüm eyləmədin axır, ey cavan, ölürəm.

Çəkirdim həsrətini, görmədim, xudahafiz!
Olubdur indi işim naləvü fəğan, ölürəm.

Fəda o qamətinə kim, qəza nə xoş çəkmiş,
Qədər büküb belimi, eyləyib kəman, ölürəm,

Fəraqdən tükənib tabü taqətim, billah,
Vüsalə yetməz əlim, zarü Natəvan ölürəm.[1]

---

[1]Şeir Natəvanın böyük oğlu Mehdiqulu xana həsr edilmişdir.

Hamı çirağləri rövşən qılarlar axşamlar,*
Evi silib-süpürüb yer salarlar axşamlar.

Gecə qaranlıq ola, yar-yarın axtaracaq,
Küçə-küçə dolanıb oynayarlar axşamlar.

Rəfiq olan eyləyir bir-birin xudahafiz,
Evə qonaq gələ, saxlayarlar axşamlar.

Şikayət eyləmə, Xurşid, xudayə şükr eylə,
Qəribi dəhrdə yalqız qoyarlar axşamlar.

*Üzərinə ulduz işarəsi qoyulan mənzumələr sonralar tapılmışdır.

Bilin yaran, bu dünyadə hərə bir kar ilən oynar![*]
Kimi xanənişin olmuş, kimi bazarilən oynar.

Kimi təxti-mürəssədə, başında taci-şahanə,
Kimi zindan içində əl-ayağı dar ilən oynar.

Kimi talibdi dünyaya, kimi aşiqdi üqbayə,
Kimi sazə, kimi nazə, kimi tək tar ilən oynar.

Kimi Məcnun sorağində, kimi Leyla fərağində,
Kimi yarın üzərində yatan şahmar ilən oynar.

Kimisi şadü xürrəmdir, kimi leylü nəhar ağlar,
Fələk də sərgiran olmuş Xurşidi-zar ilən oynar.

Salıb məni qəmü eşqin bir özgə hala, balam,*
Gözünlə görməyəsən gəlməzəm xəyalə, balam.

Tamam xəlq edər Kəbeyi-xudayə sücud,
Əyibdi qibleyi-qaşın məni şimalə, balam.

Siyəhpuş oluban dil qalıbdı zülfündə,
Yəqin kəminə yatıb arizində xalə, balam.

Şikayəti-qəmi-hicrini birbəbir edərəm,
Yetişsə bir də əlim daməni-vüsalə, balam.

Könüldü çeşmeyi-zarilə Natəvanın axan,
Onu cövrin əridib döndərib zülalə, balam.

Pünhan baxmağında genə bir fitnə meyli var,
Hiç aşina dəgil bana biganə gözlərin.[1]

[1]Bu beyt albomda şairənin öz xəttilə ayrıca yazılmışdır.

Keçibdi mövsimi-gül, getdi növbahar, əfsus!
Qalıbdı bülbüli-biçarə xarü zar, əfsus!

Riyazi-izzü şərafətdə bir gül açmışdı,
Qopardı ol gülü gülçini-ruzigar, əfsus!

O gül ki, qibtə edərdi ona behişti-çəmən,
Tutubdu indi yer altında o qərar, əfsus!

O gülbədən ki, ipək köynək incidərdi onu,
Olubdur indi o, torpaqla xakisar, əfsus!

Sən Allah, ey qara torpaq, onu əziz saxla!
Odur mənim gözümün nuru, ey məzar, əfsus!

O Təzə ay hələ bədr olmamış tamamü kamal,
Batırdı ol ayı bu çərxi-ruzigar, əfsus!

O pak olan uca göylərdə bürcü-Xurşiddən
Parıldadı uca bir ulduz, oldu tar, əfsus!

Nə ev xəyalı, nə də fikri-aşiyanə mənə
Ki, bəsdir ünsi-fərağət misalı lanə mənə.

Səni görəndə şadam, görməyəndə zar oluram,
Vüsalın ilə sevindi, demə bəhanə mənə!

Ölüncə qəlbimə dağdır məhəbbətin fikri
Ki, yadigar kimi qalsın bu dağ nişanə mənə.

Bu ruzigarda mən zarü binəva qaldım,
Qəribədir, verir üz möhnəti-zəmanə mənə.

Pənahgahıdı çox Natəvani-qəmzədənin,
İlahi, qalsın həmişə bu asitanə mənə!

Ey dust, yararmı böylə iqrar?
Yar olduğum idi, oldum əğyar.

Sən qeyrilər ilə üns tutdun,
Bilməm niyə yarını unutdun?

Sən qeyr ilə həmzəbanü yekdil,
Əmma, mənə ruzgar müşkil.

Bəsdir mənə verdiyin bu xiffət,
Rəqiblər içində, bimürüvvət!

Birəhmlik etdiyin tamamdır,
Bir rəhm elə kim, aman, amandır!

Bax bir fələkə, gör indi zinhar,
Gör kimlər ilə edibdir iqrar?

Əfsus ki, keçdi ruzigarım,
Ahım sənə çatmaz, ey nigarım!

Biganəlik etmə aşinayəm,
Dərgahinə kəmtərin gədayəm.

Hər an ki, məni bu halə salmış,
İndi belə qeylü qalə salmış.

Gəl rəhm qıl indi, padşahım!
Əflakə yetişdi dudi-ahım.

Sən yar ilə zövqdə, səfadə,
Mən burda, bu cövr ilə cəfadə.

Sən vaxtında aşinalıq etdin,
Döndün, belə bivəfalıq etdin.

Təqsir kimin oldu, padşahım?
Bildir ki, mənə nədir günahım?

Bəs neyləsin, indi bu dili-zar?
Gör kimlər ilə çəkərdim azar.

Sən nazin ilə ol indi xürrəm,
Əğyar ilə qəm çəkim dəmadəm.

Sən eyşdə əyləş indi xoşdil,
Mən hicrdə, həm məlulu müşkil,

Öldür məni, olsun əllərin var,
Səbr eylə, gözüm, nə təqsirim var.

Qəhr ilə çəkərdim ah candan,
Ah əl çəkməyir əl bu Natəvandan.

Əya Nəvvab, valayi-süxəndən,*
Yetişdi naməniz, dilşad oldum,
Qəmü ənduh firavan idi, amma
Bihəmdullah kenun azad oldum.

Sərasər şeriniz əz ruyi-hikmət,
Qamu məzmunları mehrü məhəbbət
Möhübbə rəhmətü ədvanə zillət,
Bu şirin ləhcəyə mötad oldum.

Sizə lütfi-xuda olsun müraqib,
Əta qılsın dəxi əla məratib.
Yetə bədxahə gər əşhabi-saqib,
Xərab olsam da gər, abad oldum.

Qəmi-əyyamidən çox natəvanəm,
Əliləm, naxoşam, əfsordə canəm,
Bu tətildən özüm də bədgumanəm,
Məgər kuhi-qəmə Fərhad oldum.

Unutma sən duadan Natəvanı,
Əlilü naxoşu əfsordə canı.
Cənabından səva yoxdur gümanı,
Əgər yaddan çıxam, bərbad oldum.[1]

[1]Şeir Nəvvabın məktubuna cavabdır.

“Nuri-dideyi əzizim!

Nuri-didə Ağabikə barəsində mən sənə yazdığım.

Kağızın vüsulundan sonra, dünən teleqraf urmuşdun ki, bənim haman kağızım ancaq izhari-narazılıqdır; nisbət sənə dəxi o əmrə görə dəxli olmayıbdır. Və guyə bən o nuri-çeşmin qəzasına səhl baxıram. Haşa bu gunə xəyal bəndə ola bilməz. Boylə dəgil: bu xüsusda əvvəl sən urduğun teleqrafın haləti-təqazə etdiyi mətləblər idi ki, kağızda mərqom olunmuşdu. O qərar ilə vüqui və zühuri olan məsələnin cavabında bir özgə söz yox idi ki, sənə mərqom olaydı. Vallah məndə bir özgə söz və bir əlahiddə xəyal bu barədə yoxdur və ola bilməz. Bənim mənzurim eyhan o mənadır ki, bən orada olmaya-olmaya nə üçün bu sözlər keçibdir və genə də bu xəyalda varam.

Vəssalam, (təhriratı) 17 qemvar 1889, Tiflis,
Xurşidbanu Bəgim”.[1]

[1]Natəvanın Tiflisdə olarkən, Şuşaya göndərdiyi məktubu

## LÜĞƏT

### A

Abi-heyvan – dirilik suyu
Abi-kövsər – müqəddəs su
Afərinəş – yaradılmış
Asitan – qolağzı
Aşüftə – pərişan

### B

Baqi – ömür sürən, yaşayan
Bala – uca
Barvər – bəhrəli
Behcət – şadlıq
Behcətfəza – şadlıq artıran
Besyar – çox
Beyti-fəramuşan – unutma evi, sakitlik evi
Beytülhəzən – qəm və kədər evi
Beytüssəfa – səfa evi
Bəladəşt – bəla çölü
Bərg – yarpaq
Bərin – yüksək
Bərnəşə – nəşəli
Bəsi – bir çox
Bəstər – yataq
Bibalü pər – qol-qanadsız

Bid – söyüd ağacı
Bihəmta – misilsiz
Bixab – yuxusuz
Bixurd – yeməksiz
Bimənzur – nəzərdə bir şey tutmayan, çıxış yolu olmayan
Bipərva – qorxusuz
Birlə – birgə
Bisat – süfrə
Bisərü saman – başsız, köməksiz
Bivəch – səbəbsiz

**C**

Cah – rütbə
Cahaniyann – dünya xalqları
Calis – oturan
Cavidan – əbədi
Cəfakeş – əziyyət çəkən
Cərəs – zəng, zınqrov
Cida – nizə
Cuy – arx
Cüda – ayrı
Cürm – təqsir, günah

**Ç**

Çah – quyu
Çakər – nökər
Çərx tağı – səma

**D**

Dadrəs – köməyə çatan
Dai – duaçı
Dam – tor, tələ
Damən – ətək
Daru – dərman
Darülaman – bağışlamaq evi, aman evi
Davər – ədalətli
Dərdəm – dərhal
Dərhəm – pozulmuş
Dəryadil – ürəyiaçıq, səxavətli
Dəstgir – əldən tutan, yardım edən
Dəvvar – dövr edən
Didar – görüş
Digərgun – pozulmuş
Dilbəstə – vurulmuş, bənd olmuş
Dilcu – qəlboxşayan, ürəksevən
Diləfkar – fikirli, qəmli
Dilxəstə – qəlbi sınıq
Divanəvəş – dəli kimi

Driğa – heyf
Dud – tüstü, his, tütün.
Duta – ikiqat, əyilmiş
Dur – uzaq
Dun – alçaq
Duzəx – cəhənnəm
Düçeşm – ikigöz
Dün – dünən
Düşvar – çətin

**E**

Etidal – müvazinət
Eyd – bayram
Eyman – asudə, fərağət
Eyn – göz

**Ə**

Əbyat – beytlər
Əda – düşmənlər
Ədu – düşmən
Əknun – indi
Əqdəs – ən müqəddəs
Əflak – fələk
Əfşan – saçılmış
Əfzun – artıq-çox

Əhmər – qırmızı
Əxtər – dostlar
Əmr – iş
Ənbərfişan – ətirsaçan
Əndəlib – bülbül
Ənduh – qəm
Ənvər – işıqlı
Əshab – səbəb
Əşcar – ağaclar
Əşhər – məşhur
Əşkbar – göz yaşı axıdan
Əzəm – böyük
Əzm – qəsd, məqsəd
Əzhar – parıldayan

**F**

Fələkzadə – fələk incitmiş
Fəhim – yaxşı anlayan
Fəhm – yaxşı anlayan
Fəxamət – böyüklük
Fəriştə – mələk, huri
Fərzanə – bilikli, fərasətli
Fəyyazeyi-dəhr – feya zamanı
Fikar – bədbin, pərişan
Firqət – ayrılıq
Füsürdə – solğun

## G

Gənc – xəzinə
Gənci-şaykan – böyük xəzinə
Gəncəfə – vərəq, kart vərəqi
Gərdən – boyun
Gərdiş – dolanma
Gəzaf – saysız-hesabsız
Gireh –düyün
Giryan – ağlar
Giryə – ağlamaq, yaş damlası
Göftar – danışıq
Gülbin – qızılgül kolu
Gülçin – güldərən

## H

Halə – işıq dairəsi, şüa
Həlahil – öldürücü
Həmsüxən – sözübir
Həmzəban – dilbir
Hərasan – qorxulu, ürkək
Həvas – hisslər, duyğular
Həzən – hüzn, kədər
Hicr – ayrılıq
Hilal – yeni doğan ay
Himmət – səy, mərhəmət
Huriliqa – huri sifətli

Hüma – cənnət quşu
Hüra – hurilər
Hüveyda – aşikar

**X**

Xab – yuxu
Xak – torpaq
Xakisar – torpaq kimi
Xaki siyah – qara torpaq
Xamə – qələm
Xeyl – dəstə, kürüh
Xədəng – ox
Xiffət – fikir, dərd
Xişm – acıq, qəzəb
Xişmnak – qəzəbli
Xocəstə – mübarək, uğurlu
Xosrovan – padşahlar
Xoşliqa – xoşsifət, gözəl
Xunabə – qanlı göz yaşı
Xunriz – qantökən
Xünbar – qan saçan
Xürsənd – razı, təmin olunmuş

**İ**

İlhah – yalvarış
İlticə – pənah gətirmək, sığınmaq.

İna – əzab, işgəncə
İnayət – mərhəmət
İrşad – öyrətmək, yolgöstərmə
İyzəd – Allah

**K**

Kamkar – bəxtiyar
Kani-səxa – səxavət mədəni
Kəc – əyri
Kəcrəviş – əyri gedən, düz hərəkət etməyən
Kənakan – olduğu kimi
Kəmin – əskik
Kəmtərin – ən əskik
Kər – kar
Kərimə – kəramətli qadın
Kərrubiyan – mələklər
Kəsrət – çoxluq
Kilk – qələm-fırça
Kişvər – ölkə
Kizb – yalan
Köp – çox (özbəkcə)
Kövkəbi – tale-bəxt ulduzu
Kövn – kainat
Kubra – böyük
Kuh – dağ
Kuhkən – dağ çapan

Kuy – küçə
Küdurət – qəmlər, kinlər.
Külbeyi – ehzan-qəm daxması
Küşaddələnmək – açılmaq

**Q**

Qafiləsalar – qafilə başçısı
Qaliyəsa – müşk iyli
Qasır – qısa, gödək.
Qayət – məqsud
Qəbail – qəbilələr
Qəzəlsuralıq – qəzəl oxumaq
Qibal – bəxtin açılması, üzvermə
Qiran – yaxınlaşma
Qubar – toz, narın torpaq
Qürb – yaxınlıq

**L**

Labə – yalvarmaq
Labələb – dopdolu, ağzınacan
Laməkan – məkansız, yersiz
Lanə – yerd-yurd, yuva
Layəzəli – əbədi, daimi qalan
Leyl – gecə
Ləbtəşnə – susuz

Ləmyəzəl – puç olmayan, həmişəlik
Lölə – inci, daş-qaş

**M**

Mar – ilan
Mayə – səbəb
Məani – mənalar
"Məclisiüns" – ünsiyyət və ülfət məclisi
Məcmə – yığıncaq
Məcruh – yaralı
Mədad - karandaş
Məddah – tərif edən
Məğrur – şad
Məhaq – ayın son gecəsi
Məhliqa – ayüzlü
Məhmil – gəcavə, örtülü minik
Məhvil – məclis
Məxzən – xəzinə
Məkəs – milçək
Məkr – hiylə
Məqbul – qəbula yetmiş
Məqdəm – qədəmbasma
Məmnun – razı
Mərarət – acılıq
Məratib – mərtəbə
Mərdümi-çeşm – göz bəbəyi

Mərg – ölüm
Mərqom – dair, dəxli olan
Məsa – axşam
Məsiha – İsa
Məstur – örtülü
Məsud – xoşbəxt
Məşim – damaq, dad bilən üzv
Mətlə – qəzəlin ilk beyti
Məzəllət – alçaqlıq, xarlıq
Məzhər – zühur edən, üzə çıxan yer
Mirat – güzgü
Mötad – adət etmiş
Mövc – ləpə, dalğa
Mövla – ağa
Mücəlla – cilalı, parlaq
Müdğəm – gizli
Mühəyya – hazır
Mühüb – zəhmli, heybətli
Müjə – kiprik
Mükəddər – kədərli
Mükərrəm – əziz
Müqəddəm – üstün
Müqəddər – müəyyən edilmiş
Müqəyyəd – asılan, bağlı
Mümtaz – yüksək
Münəvvər – işıqlanmış
Münəqid – bağlanmış, düyünlənmiş

Mürəssə – daş-qaşla bəzənmiş
Mürğ – quş
Müsəxxər –zəbt olunmuş
Müstəmənd – biçarə, möhtac
Müstofi – maliyyə başçısı, xəzinədar
Müşəxxəs – müəyyən edilmiş, təyin olunmuş
Müşkin – iyli, ətirli
Mütərra – dağınıq
Müzəyyən – bəzəkli, zinətləndirilmiş
Müztər – çarəsiz, yazıq

**N**

Naqə – dəvə
Nar – od
Natəvan – qüvvəsiz, halsız, köməksiz
Navük – süngü
Nehal – cavan ağac
Neyrəng – hiylə
Nəcm – ulduz
Nəhar – gündüz
Nəhr – çay
Nəmud – görünmə, zahirolma
Nəşiman – oturaq yer
Nəyyar – işıqlı
Nəzar – zəif
Nəzzarə – baxış

Nigunsar – çevrilmiş, alt-üst olmuş
Nili – tünd abı
Nimə – yarı
Nisar – saçmaq
Nişat – şadlıq
Niyazmənd – yalvarış
Novbavəkan – yeniyetmələr
Novk – uc
Novşükuftə – təzə açmış
Növrəs – yeniyetmə
Nuri-çeşm – gözün işığı
Nüqtəşünas – incə düşünən
Nümayan – aydın, aşkar
Nümüvv – cücərmə, boy otma, bitmə

**Ö**

Övc – yüksək
Övsaf – təriflər

**P**

Pabus – ayaqdan öpən
Pamal – ayaq altında qalıb əzilmək, məhv olmaq
Pasiban – gözətçi
Payəndazlıq – ayağının altına düşmək
Payibənd – ayağı bağlı

Payidar – həmişəlik
Peymanə – qədəh
Peyvəstə – həmişə
Pədidar – aşkar
Pərü bal – qol-qanad
Pir – qoca
Pürdərd – dərdli, dərdlə dolu
Pürtab – tablı

**R**

Rah – yol
Raqib – istəyən, rəğbət bəsləyən
Rəfət – yüksəklik
Rəha ola – qurtara
Rəhgüzar – yoldan ötən
Rənc – zəhmət
Rəncur – incik, dərdli
Rəşk – qısqanma, həsəd
Rümüz – rəmzlər

**S**

Saqib – iti, parlaq, deşən
Sayəban – kölkə salan
Səfabəxş – aydın, duru
Səhərgah – səhər çağı
Səməndər – əfsanəvi quş
Səradiq – pərdə

Sərasimə – çaş-baş olmuş
Sərbülənd – başıuca
Sərgəştə – avara
Sərgiran – sərxoş
Sərv bala – sərvboylu
Sərvvəş – sərvüzlü
Sicud – səcdə, başəymə
Sifat – sifətlər
Siyəhpuş – qara geyimli
Siyəhfam – qaranlıq
Sipehr – göy
Sirab – sudan doymuş
Sirişk – göz yaşı

**Ş**

Şəmadət – tənə
Şərar – qığılcım
Şərmisar – xəcalət
Şikvə – şikayət, giley
Şitab – tələsmə
Şüğl – məşğuliyyət
Şükuftə – açılmış, çiçəkləmiş
Şümar – say

**T**

Taət – itaət
Talib – istəyən, axtaran

Tari zülf – saçın hər bir teli
Tarik – qaranlıq
Tat – tutqun, qaralmış
Tayir – quş
Təbxal – qızdırmadan uçuqlama
Təfəhhüm – anlamaq
Təhrir – yazmaq
Təkəllüm – danışıq
Təkyə – söykənmək
Tələlə – parıltı
Tələt – üz
Təmma – tamahkar insan
Təng – dar
Tərh – eskiz
Tərəhhüm – mərhəmət göstərmək
Tərcih vermək – üstün tutmaq
Tərrarə – aldadıcı, dələduz, kələkbaz
Təşnə – susuz
Təvaf – başına dolanmaq
Tirə - qara
Tutiya – tütyə
Tülu – günəşin doğması
Türfə – qəribə
Türreyi-tərrar – dağınıq saç

**Ü**

Üftadə – düşkün, düşmüş
Üqba – axirət

Ünqa – simurğ quşu
Üsrət – çətinlik
Üşşaq – aşiqlər
Üzar – yanaq

**V**

Vabəstə – bağlı, asılı
Virdi-zəban – dillər əzbəri
Vüqu – baş vermək, vaqe olmaq.

**Y**

Yekdil – qəlbləri bir həmrəy
Yəğma – qarət

**Z**

Zağü zəğən – qarğa-quzğun
Zəban – din
Zəbanə – alov
Zəxmdar – yaralı
Zindəgi – yaşayış, dirilik
Zişən – şanlı
Zülmətgədə – qaranlıq yer
Zümrüdfam – zümrüd rəngi

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .4

Şuri-eşqin başıma axırı sövda gətirir . . . . . . . . . . . . . . .19
Hicran ilə kim, dəməni-qəm dəstrəsimdir . . . . . . . . . . .20
Olmuşam dəhri-bəla içrə bu gün divanə mən . . . . . . .21
Dilbərə, dərdi-dilimdən belə ünvan etdim . . . . . . . . . .22
Müşküldür, mən kənarə düşəm kuyi-yardən . . . . . . . .23
O müjgani-siyəhnovkin xədəngi-yarə bənzətdim . . . .24
Könül qanın gözümdən navüki-qəmzən rəvan eylər . .25
Rəqibtöhməti etdi məni cüda, ey dust! . . . . . . . . . . . . .26
Xocəstə bülbüli-xoşnitq, xoşzəban, getmə! . . . . . . . . .27
Yenə ya rəb, nə qəmgindir mənim bu şad olan
könlüm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .28
Yıxıb bu könlüm evin, eyləyib viran, getmə! . . . . . . . .29
Əgərçi xoşdu mənə ətri, həm səfası gülün . . . . . . . . . .30
Fəriştətələtü məhruyi-xoşliqa, getmə! . . . . . . . . . . . . .31
Nədir murad, fələk etməz imtahan tərkin? . . . . . . . . . .32
Nə yaxşı munis idi, heyf, nagəhan getdi . . . . . . . . . . . .33
Nə güldür kim, qəmində ömrdən bizardır bülbül? . . . .34
Nə oldu bülbül kim, qıldı gülisitan tərkin? . . . . . . . . . .35
Zəmanə saldı əcəb möhnətü məlalə məni . . . . . . . . . .36
Hicran edibdi könlümü bərbad, ağlaram . . . . . . . . . . . .37
Səninlə ,ey büti-məhruy, mehriban mən idim . . . . . . .38
Yanar canım, oğul, daim sənin nari-fərağında . . . . . . .39
Fəraq ilə işimi ahü zar sən idin . . . . . . . . . . . . . . . . . . .41

Səhərgəh nagəhan gördüm, dili-zarın nəhan ağlar . . .43
Nədəndir səndə əylənməz güli-dövran, xudahafiz . . .45
Bahar əyyamıdır, açıldı güllər, ey cavan sənsiz . . . . . .46
Gəcrəvişdir bu asiman, əfsus! . . . . . . . . . . . . . . . . . . .47
Mənə bədtərdi düzəxdən, əzizim, gülsitan sənsiz! . . .49
Ey əhli-dil, Fənanı qoyun barı ağlasın! . . . . . . . . . . . ..50
Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı! . . . . . . .51
Ey güli-süsən, səni bir natəvan çəkmiş məgər? . . . . . .52
Səni kimdir sevən bica, qərənfil? . . . . . . . . . . . . . . . . . .53
Fələk rənginə bənzər bu bənövşə . . . . . . . . . . . . . . . . . .54
Özün eşq atəşinə vurmağa dilşad pərvanə . . . . . . . . . .55
Qoyubdur intizarında, neçin gəlməz, neçin gəlməz? . .56
Bilən bu dərdimi yoxdur bu halətdə, bu halətdə . . . . .58
Varımdı sinədə dərdü qəmi-nəhan, ölürəm . . . . . . . . .59
Hamı çirağləri rövşən qılarlar axşamlar . . . . . . . . . . . .60
Bilin yaran, bu dünyadə hərə bir kar ilən oynar! . . . . .61
Salıb məni qəmü eşqin bir özgə hala, balam . . . . . . . .62
Keçibdi mövsümi-gül, getdi növbahar, əfsus! . . . . . . .63
Nə ev xəyalı, nə də fikri-aşiyanə mənə . . . . . . . . . . . .64
Ey dust yararmı böylə iqrar(məsnəvi) . . . . . . . . . . . . .65
Əya Nəvvab, valayi-süxəndan . . . . . . . . . . . . . . . . . . . .67
Nuri-dideyi əzizim! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .68

Lüğət . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .69

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Aslan Almasov* |
| Korrektorlar: | *Sadiq Hüseynov*<br>*Ceyran Abbasova* |

Yığılmağa verilmişdir 05.08.2004.
Çapa imzalanmışdır 19.11.2004.
Formatı 60x90 $^1/_{32}$. Fiziki çap vərəqi 2,75.
Ofset çap üsulu. Tirajı 25000. Sifariş 185.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.